

## NURANƏ NİHAN

### *QƏZƏL*

Bir kərə axtar, canım, divanələrdən sor məni.
Leylilər bəzmində gəz, əfsanələrdən sor məni.

Eşq gülzarımda səndən özgə canan istəməm,
Olmasan, könlüm kimi viranələrdən sor məni.

Sən mənə gül söyləmə, hər bülbülə açmış qucaq,
Nurun üçün odlanan pərvanələrdən sor məni.

Mən əsir oldum qəmə, dərd əhliyəm, möhnətliyəm,
Göz yaşıyla sellənən qəmxanələrdən sor məni.

Bixəbərlər qəlbimin eşq ağrısın duymaz, Nihan,
Aç, bu nurani qəmi, fərzanələrdən sor məni.

### *NAĞIL EŞQİM*

Bir nağılmış birgə keçən o anlar,
Bu nağılın "var"ı məndim, "yox"u sən.
Gerçəyimdə tutammadın heç qərar,
İndi durub yuxumamı gəlmisən?

Aç könlümün bağlı qalmış qapısın,
İçərisi çox soyuqdur, bağışla.
Zərrə qədər bir köz qalıb, tap isin,
Daha yanan ocaq yoxdur, bağışla.

Xatirələr tər-təmizdir, tozu yox,
Göz yaşlarım hərdən yuyub onları.
Neçə vaxtdır burda qışdır, yazı yox,
Hisslər donmuş, fikir sərsəm, can yarı.

Künc-bucaqda kif atıbdır arzular,
Həsrət qurdu divarlara tor hörüb.
Diqqətlə bax, önündə bir məzar var,
Dərdli vüsal oradaca can verib.

...Gəldin gördün əsərini, indi get,
Mürgü vuran xəyallarım halbahal.
Bundan sonra nə başla sən, nə də bit,
Ən yaxşısı, bir yarımçıq nağıl qal...

Bir nağılmış birgə keçən o anlar,
Bu nağılın "var"ı məndim, "yox"u sən...

### *TALE YOLU*

Görən hara gedir bu tale yolu,
Görəsən bu yolun sonunda nə var?
Ələnsə başıma yağış, qar, dolu,
Daldalanmaq üçün yanında nə var?

Doldursan bu yolda bir çala qalmaz,
İçimdə boşluğu nə dolduracaq?
Yoxuşda yorulsam duraram bir az,
Enişdə yıxılsam kim qaldıracaq?

Hərdən xəyal kimi görünüb gedir,
Günəşim özünü naza çəkibdir.
Mənimlə birlikdə sürünüb gedir,
Beynimin dumanı yola çöküblbdür.

Bu yolda bir qərib olmaq da varmış,
Bu yol qəribləri yola vermədi.
Deyirlər, arzudan arzu doğarmış,
Mənim arzularım bala vermədi...

Axsaq bir ömürlə yol aşmaq olmur,
Çıxımmı ömrümlə yol davasına?
...Neyləyim, qismətlə dalaşmaq olmur,
Gərək ki, oynayam hər havasına...